# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Azərbaycan Respublikasında 2025-2030-cu illər üzrə dövlət qulluqçuları üçün Təlim Strategiyası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya”nın 2023–2025-ci illərdə icrası üzrə Fəaliyyət Planının 3.1-ci bəndinin icrasını təmin etmək, habelə dövlət qulluqçularının peşəkar inkişafı sisteminin təkmilləşdirilməsi, dövlət qulluğunun, dövlət orqanlarının və dövlət qulluqçularının təlimə olan tələbatlarını (təlim ehtiyaclarını) hərtərəfli ödəyən peşəkar və davamlı təlim sisteminin formalaşdırılması məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasında 2025–2030-cu illər üzrə dövlət qulluqçuları üçün Təlim Strategiyası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Strategiyanın Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasına məlumat versin.

3. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 1 ” “ fevral ” 2025-ci il

№ 62s